

# Kitabxanamızın qayğıları

*Kitabxana haqqında, onun cəmiyyətin inkişafında oynadığı rol, tutduğu mövqe barədə düşünürəm. Yadıma hələ uşaq ikən məktəbdə, ailədə tez-tez eşitdiyim müdrik bir kəlam düşür: "Kitab bilik mənbəyidir." Həqiqətən, elədir. İllər ötdükcə, zaman keçdikcə bu fikrin doğruluğuna bir daha əmin olursan. Biz bütün bilikləri, məlumatları kitablar vasitəsilə əldə edirik. Çoxlu mütaliə edən insanların dünyagörüşü geniş və əhatəli olur. Ürəyimiz darıxanda əlimizə kitab götürür, oradan gözəl, mənalı bir şer tapıb oxuyuruq.*



Bilirik ki, uşaqların, gənc nəslin təlim-tərbiyəsində, bir vətəndaş kimi formalaşmasında kitabların, kitabxanaların rolu əvəzsizdir. Bu gün Göyçay Rayon MKS-in gördüyü işlər barədə danışmaq, oxuculara məlumat vermək istəyirəm. Bu səfalı, gözəl rayonda fəaliyyət göstərən Mərkəzi Kitabxana Sisteminə Rövşən xanım Babayeva rəhbərlik edir. Biz öyrəndik ki, Göyçay Rayon MKS-in 2003-cü ildə kitab fondu rayon üzrə cəmi 400053 nüsxə, oxucuların sayı 31740 nəfər olmuşdur. Mərkəzi kitabxananın fondu 39212 nüsxəyə, oxucuların sayı 4964 nəfərə çatdırılmışdır.

2003-cü ildə kitabxana 1006 ədəd latın qrafikalı ədəbiyyat almışdır. 2003-cü ildə Kitabxana Kollektoru ilə 8 milyon manatlıq müqavilə bağlanmışdır. Müqaviləyə tam əməl olunmuşdur. 2004-cü ildə kitab alınması üçün 10 milyon manatlıq müqavilə bağlanmışdır. 5 milyon manatlıq kitab alınmış, ilin sonuna qədər qalan məbləğə kitablar alınacaqdır. 2004-cü ildə kitabxanaya 615 ədəd latın qrafikalı kitab alınmışdır.

Kitabxanada 6 şöbə fəaliyyət göstərir. Xidmət şöbəsinin müdiri Güllü Paşayeva, elmi-biblioqrafiya şöbəsinin müdiri Nərminə Qəhrəmanova, oxu zalı şöbəsinin müdiri Şövqiyyə Qarayeva, uşaq şöbəsinin müdiri Yavər Sədiyeva kitabxananın fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa çalışırlar.



Elmi-biblioqrafiya şöbəsinin gördüyü işlər haqqında N.Qəhrəmanova ətraflı məlumat verdi. O bildirdi ki, şöbə kitabxanaya daxil olan dövrü və ardı davam edən nəşrləri elmi-texniki cəhətdən işləyir, prezident fərmanı, qanun, sərəncam və qərarlarını kartoçka üzərində işləyir, əlifba sırası ilə kataloqa yığır. Şöbə biblioqrafik göstəricilər tərtib edir, fonda daxıl olan yeni kitabların icmallarını yazır, biblioqrafik məlumatları müntəzəm olaraq vaxtında oxuculara çatdırır. Bu məqsədlə oxucularla biblioqrafik söhbətlər aparılır. Əlamətdar və tarixi günlərə aid dövrü və yeni nəşrlərin sərgisi təşkil edilir, Azərbaycan tarixinə aid materialların biblioqrafik siyahısı çıxarılır. Qəzet və jurnal materialları üzrə oxucu sorğuları şifahi və yazılı formada vaxtlıvaxtında ödənilir və kataloqdan istifadə qaydaları oxuculara müntəzəm olaraq başa salınır. Şöbə bülleten çıxarır. Soraq-biblioqrafiya aparatının tərkib hissəsi olan kataloq və kartoçkalar, ödənilmiş arayışlar fondu və soraq-biblioqrafik nəşrlər fondu mütəmadi surətdə işlənir. Şöbə əsas işini əlifba və sistemli kataloqlarla aparır. Əhəmiyyətini itirmiş, yararsız ədəbiyyatlar əlifba qaydası ilə kataloqdan çıxarılır və yeni ədəbiyyatların kartoçkaları kataloqda əlifba və sistemli qaydada yerləşdirilir.





R.Babayeva söhbətini davam etdirir:

- Kitabxanada müxtəlif tədbirlər keçirilir: 20 Yanvar, Xocalı faciəsinin anım günü, 31 Mart - Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar tədbir, əbədiyaşar prezidentimiz Heydər Əliyevə həsr olunmuş "Heydər Əliyev müstəqil Azərbaycanın banisidir" adlı xatirə gecəsi, 8 Mart - Beynəlxalq Qadınlar günü münasibətilə "Ən böyük cahan anadır" adlı tədbir, Novruz bayramı münasibətilə bayram tədbirləri, Azərbaycanın görkəmli yazıçı və şairlərinin yaradıcılıq gecələri keçirilir. Cəfər Cabbarlının anadan olmasının 115, Nəcəf bəy Vəzirovun anadan olmasının 150, Abbasqulu ağa Bakıxanovun anadan olmasının 210 illiyilə əlaqədar olaraq keçirilən xatirə gecələri oxucular, ədəbiyyatımızı sevənlər tərəfindən maraqla qarşılanmışdır.

Göyçay Rayon MKS-in qarşısında hələ çox görüləsi işlər durur. Arzu edirik ki, onlar bu məsuliyyətli işlərin öhdəsindən bacarıqla gəlsinlər. Bu kitabxanaya üz tutan hər bir oxucu buradan sevinclə, razılıq hissi ilə ayrılsın.

**Ş.Əkbərova**